26 noyabr 2014-cü il tarixində Yaponiya hökümətinin “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı” çərçivəsində Xızı rayon İcra Hakimiyyətinin Binasında aşağıda qeyd olunan İmzalanma Mərasimi keçirilmişdi. Deleqasiya Azərbaycanın görkəmli şairi Mikayıl Müşfiqin Xatirə Muzeyini ziyarət etdi.

**“Xızı Rayonunun Altıağac kəndində tibb məntəqəsinin tikintisi” layihəsi**

Layihənin əsas məramı Altıağac kənd sakinləri üçün tibbi xidmətdən istifadənin mümkünlüyünü təmin etməkdir. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği 102,579 ABŞ dolları təşkil edir. Bu səfirliyin Xızıda ilk layihəsidir.

Sağ tərəfdən: Yaponiya Səfirliyinin birinci katibi cənab T.İmanişi, millət vəkili M.Ibrahimqızı, Xızı rayon İcra Hakimiyyətinin Başçısı cənab X.Aslanov, səfir T.Takahaşi, Yaponiya Səfirliyinin əməkdaşı L.Hacızadə



Səfir Azərbaycan dilində nitq söylədi





Müqavilə səfir T.Takahaşi və “Lider Qadınlar” təşkilatının sədri M.ibrahimqızı arasında imzalandı

Mikayıl Müşfiqin büstü önünə güllər qoyuldu



M. Müşfig Xatirə Muzeyinin əməkdaşları ilə

